**AZƏRBAYCAN RESPUBLİKASI**
**NAXÇIVAN MUXTAR RESPUBLİKASI**
**NAZİRLƏR KABİNETİ**

# Q Ə R A R

**Çıxarış**

**Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin “Naxçıvan Muxtar Respublikasında inzibati orqanların Təsnifatı”nın təsdiq edilməsi haqqında” 2007-ci il 5 sentyabr tarixli 69 nömrəli, “Naxçıvan Muxtar Respublikasında dövlət büdcəsindən maliyyələşən idarə, müəssisə və təşkilatlarda nəqliyyat vasitələrindən istifadə qaydalarının təkmilləşdirilməsi haqqında” 2011-ci il 25 avqust tarixli 82 nömrəli, “Mərkəzi icra hakimiyyəti orqanları tərəfindən konkret sahələr üzrə elektron xidmətlər göstərilməsi Qaydaları”nın və “Elektron xidmət növlərinin Siyahısı”nın təsdiq edilməsi haqqında” 2011-ci il 8 dekabr tarixli 103 nömrəli, “Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyinin aparatının və Nazirliyin tabeliyində olan orqanların ştat cədvəllərinin təsdiq edilməsi haqqında” 2014-cü il 1 sentyabr tarixli 75 nömrəli, “Naxçıvan Məhsulları” publik hüquqi şəxsin Nizamnaməsi”nin və ştat cədvəlinin təsdiq edilməsi haqqında” 2019-cu il 19 aprel tarixli 49 nömrəli, “Naxçıvan Muxtar Respublikasında yeyinti məhsullarına verilən uyğunluq sertifikatının və baytarlıq şəhadətnaməsinin formasının və uyğunluq sertifikatının və baytarlıq şəhadətnaməsinin verilməsi Qaydaları”nın təsdiq edilməsi haqqında” 2020-ci il 2 sentyabr tarixli 158 nömrəli, “Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin “Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyinin Aparatının və Nazirliyin tabeliyində olan orqanların ştat cədvəllərinin təsdiq edilməsi haqqında” Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2014-cü il 1 sentyabr tarixli 75 nömrəli Qərarında və 2014-cü il 8 oktyabr tarixli 79s nömrəli Sərəncamında dəyişiklik edilməsi haqqında” 2021-ci il 25 yanvar tarixli 51 nömrəli, “Bir sıra publik hüquqi şəxslərin ştat cədvəllərinin təsdiq edilməsi barədə” 2022-ci il 9 fevral tarixli 30 nömrəli,**

**“Naxçıvan Muxtar Respublikası Dövlət Baytarlıq Xidmətinin Aparatının və tabeliyində olan qurumların ştat cədvəli”nin təsdiq edilməsi haqqında” 2022-ci il 11 aprel tarixli 98 nömrəli, “Naxçıvan Məhsulları” publik hüquqi şəxsin ştat cədvəlinin təsdiq edilməsi haqqında” 2023-cü il 30 may tarixli 94 nömrəli qərarlarında və 2023-cü il 3 aprel tarixli 31s nömrəli Sərəncamında dəyişiklik edilməsi və “Toxumçuluq və tinglik təsərrüfatlarından satılan 1-ci və 2-ci reproduksiyalı toxumlara və tinglərə görə dövlət büdcəsindən təsərrüfatlara subsidiyanın ödənilməsi Qaydası”nın təsdiq edilməsi barədə” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2007-ci il 25 iyun tarixli 103 nömrəli qərarı haqqında” 2007-ci il 5 iyul tarixli 57 nömrəli, “Naxçıvan Muxtar Respublikasında dövlət baytarlıq nəzarətini yerinə yetirən Dövlət Baytarlıq Xidməti işçilərinin çiyinüstü fərqləndirici nişanlarının təsvirinin təsdiq edilməsi haqqında” 2008-ci il 3 mart tarixli 26 nömrəli, “Naxçıvan Muxtar Respublikası Dövlət Baytarlıq Xidmətinin kollegiyasının təsdiq edilməsi haqqında” 2008-ci il 19 mart tarixli 33 nömrəli, “Kənd təsərrüfatı məhsulları istehsalçılarının toxum, gübrə və damazlıq heyvanları ilə təmin edilməsinə əlavə dəstək verilməsi ilə əlaqədar bəzi məsələlər barədə” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2008-ci il 22 sentyabr tarixli 226 nömrəli qərarı haqqında” 2008-ci il 7 oktyabr tarixli 89 nömrəli, “Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyinin tabeliyində olan Akademik Həsən Əliyev adına “Araz” Elm İstehsalat Birliyində çalışan işçilərin əməyinin stimullaşdırılması barədə” 2015-ci il 29 iyul tarixli 53 nömrəli, “Naxçıvan Muxtar Respublikasında süni mayalanma yolu ilə alınmış hər buzova görə subsidiyanın verilməsi Qaydası”nın təsdiq edilməsi haqqında” 2016-cı il 26 yanvar tarixli 6 nömrəli, “Dövlət müəssisə və təşkilatları (idarələri) tərəfindən ərzaq məhsullarının mərkəzləşdirilmiş qaydada dövlət büdcəsinin vəsaitləri hesabına satın alınmasının təmin edilməsi ilə əlaqədar Nümunəvi Formalar”ın təsdiq edilməsi haqqında” 2016-cı il 18 iyul tarixli 73 nömrəli, “Akademik Həsən Əliyev adına “Araz” Elm İstehsalat Birliyinin Əsasnaməsi”nin təsdiq edilməsi haqqında” 2018-ci il 30 oktyabr tarixli 180 nömrəli, “Dövlət baytarlıq nəzarətində olan məhsullara, o cümlədən idxal və ixrac edilən yüklərə Naxçıvan Muxtar Respublikasında dövlət baytarlıq nəzarətinin təşkili, dövlət baytarlıq nəzarətində olan yüklərin muxtar respublikaya gətirilməsi və muxtar respublika daxilində daşınması Qaydaları”nın təsdiq edilməsi haqqında” 2020-ci il 2 sentyabr tarixli 159 nömrəli, “Naxçıvan Muxtar Respublikasında xüsusi təhlükəli heyvan xəstəliklərinə qarşı dövlət büdcəsindən maliyyələşdirilən baytarlıq xidmətlərinin göstərilməsi barədə**

**müqavilə nümunəsi"nin təsdiq edilməsi haqqında" 2021-ci il 18 oktyabr tarixli 221 nömrəli, "Naxçıvan Muxtar Respublikasında dövlət və fərdi baytarlıq xidmətlərini yerinə yetirən şəxslər üçün xüsusi geyim forması və fərqləndirici nişanlarının təsviri"nin və "Dövlət baytarlıq xidmətini yerinə yetirən şəxslər üçün təchizat norması"nın təsdiq edilməsi haqqında" 2022-ci il 8 iyul tarixli 150 nömrəli qərarlarının və 2017-ci il 8 may tarixli 39s nömrəli Sərəncamının ləğv edilməsi barədə**

"Naxçıvan Muxtar Respublikasında aqrar sahədə idarəetmənin təkmilləşdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında" Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin 2023-cü il 10 iyul tarixli 187-VI FR nömrəli Fərmanının 12.4-cü bəndinin icrasını təmin etmək məqsədilə Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti **qərara alır:**

2. Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2011-ci il 25 avqust tarixli 82 nömrəli Qərarı ilə təsdiq edilmiş "Naxçıvan Muxtar Respublikasının mərkəzi icra hakimiyyəti və məhkəmə orqanlarının aparatları (hərbi qurumlar, hüquq mühafizə və prokurorluq orqanları, rayon (şəhər) məhkəmələri istisna olmaqla), mərkəzi icra hakimiyyəti orqanlarının yerli bölmələri, onların yanında, tabeliyində olan orqanlar, mərkəzi icra hakimiyyəti orqanlarının yanında yaradılan dövlət agentliklərinin, dövlət xidmətlərinin aparatları və onların yerli bölmələri üçün xidməti minik avtomobillərinin say həddi (limiti)" cədvəlində aşağıdakı dəyişikliklər edilsin:

2.1. 17-ci hissə ləğv edilsin;

2.2. "Cəmi" hissəsinin "Cəmi" sütunu üzrə "115" rəqəmləri "113" rəqəmləri ilə, "aparat üzrə" sütunu üzrə "73" rəqəmləri "71" rəqəmləri ilə əvəz edilsin.

3. "Mərkəzi icra hakimiyyəti orqanları tərəfindən konkret sahələr üzrə elektron xidmətlər göstərilməsi Qaydaları"nın və "Elektron xidmət növlərinin Siyahısı"nın təsdiq edilməsi haqqında" Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2011-ci il 8 dekabr tarixli 103 nömrəli Qərarında aşağıdakı dəyişikliklər edilsin:

3.1. həmin Qərarla təsdiq edilmiş 1 nömrəli əlavə - "Mərkəzi icra hakimiyyəti orqanları tərəfindən konkret sahələr üzrə elektron xidmətlər göstərilməsi Qaydaları"nın 3.1.11-ci yarımbəndindən ", baytarlıq" sözü çıxarılsın;

3.2. həmin Qərarla təsdiq edilmiş 2 nömrəli əlavə - "Elektron xidmət növlərinin Siyahısı"nın 28-ci və 35-ci hissələri ləğv edilsin.

6. "Naxçıvan Muxtar Respublikasında yeyinti məhsullarına verilən uyğunluq sertifkatının və baytarlıq şəhadətnaməsinin formasının və uyğunluq sertifkatının

və baytarlıq şəhadətnaməsinin verilməsi Qaydaları”nın təsdiq edilməsi haqqında” 2020-ci il 2 sentyabr tarixli 158 nömrəli Qərarında aşağıdakı dəyişikliklər edilsin:

6.1. həmin Qərarla təsdiq edilmiş “Baytarlıq şəhadətnaməsinin Forması”nda ismin müvafiq hallarında “Dövlət Baytarlıq Xidməti” sözləri ismin müvafiq hallarında “Kənd Təsərrüfatı Nazirliyi” sözləri ilə əvəz edilsin;

6.2. həmin Qərarla təsdiq edilmiş Naxçıvan Muxtar Respublikasında yeyinti məhsullarına baytarlıq şəhadətnaməsinin verilməsi Qaydası”nın 1.2-ci bəndində “Dövlət Baytarlıq Xidməti” sözləri “Kənd Təsərrüfatı Nazirliyi” sözləri ilə əvəz edilsin.

12. Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin “Kənd təsərrüfatı məhsulları istehsalçılarının toxum, gübrə və damazlıq heyvanları ilə təmin edilməsinə əlavə dəstək verilməsi ilə əlaqədar bəzi məsələlər barədə” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2008-ci il 22 sentyabr tarixli 226 nömrəli qərarı haqqında” 2008-ci il 7 oktyabr tarixli 89 nömrəli, “Naxçıvan Muxtar Respublikasında süni mayalanma yolu ilə alınmış hər buzova görə subsidiyanın verilməsi Qaydası”nın təsdiq edilməsi haqqında” 2016-cı il 26 yanvar tarixli 6 nömrəli, “Dövlət baytarlıq nəzarətində olan məhsullara, o cümlədən idxal və ixrac edilən yüklərə Naxçıvan Muxtar Respublikasında dövlət baytarlıq nəzarətinin təşkili, dövlət baytarlıq nəzarətində olan yüklərin muxtar respublikaya gətirilməsi və muxtar respublika daxilində daşınması Qaydaları”nın təsdiq edilməsi haqqında” 2020-ci il 2 sentyabr tarixli 159 nömrəli Qərarları ləğv edilsin.

13. Bu Qərar imzalandığı gündən qüvvəyə minir.

**Naxçıvan Muxtar Respublikasının**
**Baş naziri** **Səbuhi Məmmədov**

Naxçıvan şəhəri, “26” sentyabr 2023-cü il

№ 127